## Hüquq məsləhətxanamız

***Samirə Musayeva***
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

### Yol vergisi

***Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki şəxslərə və hüquqi şəxslərə illik yol vergisi necə hesablanır və düvlət büdcəsinə nə vaxt üdənilir?***

Vergi Məcəlləsinin (VM) 210-cu maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin, habelə ölkə ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri vergitutma obyektidir.

VM-in 211.1.2-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan şəxslər (kənd təsərrüfatı məhsullarının istehsalında istifadə olunan kənd təsərrüfatı texnikası (traktorlar, kombayn və yığım maşınları, pambıqyığan maşınlar) və büdcə təşkilatlarının avtomobil nəqliyyatı vasitələri istisna olmaqla) illik yol vergisini minik avtomobilləri üzrə mühərrikin həcmi 2000 kubsantimetrədək olduqda mühərrikin həcminin hər kubsantimetrinə görə - 0,01 manat, mühərrikin həcmi 2000 kubsantimetrdən çox olduqda isə 20 manat + mühərrikin həcminin 2000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə - 0,02 manat, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri mühərrikin həcminin hər kub-santimetrinə görə - 0,02 manat ödəyirlər.

VM-in 212.4-cü maddəsinlə qeyd edilmişdir ki, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki şəxslər illik yol vergisini avtomobillər texniki baxışdan keçən zaman dövlət büdcəsinə ödəyirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş «Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında» Nümunəvi Əsasnamənin 1.4-cü bəndinə müvafiq olaraq, respublika ərazisində daimi və ya müvəqqəti qeydiyyatda olan, mülkiyyət formasından asılı olmayaraq bütün mexaniki nəqliyyat vasitələrinə və qoşqulara (yarımqoşqulara) dövlət texniki baxışı Əsasnamənin 1.1-ci bəndində nəzərdə tutulmuş orqanlar tərəfindən ildə bir dəfə yanvar ayının 1-dən oktyabr ayının 31-dək müddətdə həyata keçirilir.

VM-in 212.2-ci maddəsində qeyd edilmişdir ki, illik yol vergisinin Məcəllənin 212.4-cü maddəsində göstərilən qaydada ödənildiyini təsdiq edən sənədlər təqdim edilmədikdə, avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan müvafiq icra hakimiyyəti orqanı (Daxili İşlər Nazirliyi) tərəfindən avtonəqliyyat vasitələrinin qeydiyyatı, yenidən qeydiyyatı və texniki baxışı keçirilmir.

Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər isə VM-in 212.3-cü maddəsinə əsasən yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.